■ **Babayev Gəncəli**

## Olmaz (Divani)

Allahıma çox şükür, tikəmi halal verib,
Hər adam halal yeməz, hər alında tər olmaz.
Müftəyeyən göz dikər kasıbların malına,
Meyl eyləməz zəhmətə, ürəkdə təpər olmaz.

Qarınqulu olan kəs bilməz ağız dadını,
Şöhrətpərəst axtarmaz qohumunu, yadını.
Bir axmaq zay eyləyər bütün nəslin adını,
Sayılmaz el içində, sözündə dəyər olmaz.

Adam var ki, dizinin üstündədi çörəyi,
Adam var ki, qonşuya paxıllıqdı diləyi.
Adam var ki, köksündə tir-tir əsir ürəyi,
Elə qorxaq oğuldan düşmənə sipər olmaz.

Uymaginən şeytanın fitnəsinə, felinə,
Yüz namərd qurban olsun bircə mərdin telinə.
Gəl, ay aşıq *Gəncəli*, şənlik dilə elinə,
Aşıqlar toy arzular, dillərində şər olmaz.